# Azərbaycan UNESCO İcraiyyə Şurasının 219-cu sessiyası çərçivəsində keçirilən milli komissiyaların iclasında təmsil olunub




**UNESCO-nun Parisdəki mənzil-qərargahında qurumun İcraiyyə Şurasının 219-cu sessiyası davam edir. AZƏRTAC xəbər verir ki, UNESCO-nun 219-cu sessiyası çərçivəsində bu təşkilata üzv ölkələrin milli komissiyalarının iclası keçirilib. İclasda ölkəmizi UNESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının baş katibi Seymur Fətəliyev təmsil edib.**

İclasda üzv ölkələrin milli komissiyalarının həyata keçirdiyi layihələr haqqında məlumat verilib. UNESCO üzrə Azərbaycan Milli Komissiyası bu təşkilatın bütün prioritet istiqamətləri üzrə fəaliyyətini uğurla davam etdirir. Həmçinin Azərbaycan Milli Komissiyası bu təşkilata üzv ölkələrin milli komissiyaları ilə əlaqələrinin inkişafında, müştərək proqram və tədqiqat işlərində fəal iştirak edir.

2025-ci ilədək İcraiyyə Şurasının üzvü olacaq Azərbaycan təşkilatla mədəniyyət, təhsil, elm, informasiya və kommunikasiya sahələrində geniş əlaqələr qurub, UNESCO ailəsinin nüfuzlu üzvünə və donor dövlətinə çevrilib.

Xatırladaq ki, UNESCO İcraiyyə Şurasının 219-cu sessiyası martın 27-dək davam edəcək.

---

Azərbaycan.- 2024.- 20 mart, №62.- S.5.